**Xaricdə yaşayan azərbaycanlıların və Azərbaycan Respublikasının ərazisində olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müraciətlərinin qəbuluna dair inzibati reqlament**

**1. Ümumi müddəalar**

**1.1. Elektron xidmətin adı:** Xaricdə yaşayan azərbaycanlılann və Azərbaycan Respublikasının ərazisində olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin e-müraciəti.

**1.2. Elektron xidmətin məzmunu:** Bu xidmət xaricdə yaşayan azərbaycanlıların və Azərbaycan Respublikasının ərazisində olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin səlahiyyətlərinə dair müraciətlərinə baxılmasını, araşdırılmasını və cavablandırılmasını əhatə edir.

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**
- "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli 429 nömrəli Fərmanı;
- "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı və həmin Qərara dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı;
- Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamə;
- "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu;
- "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanunu.

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi.

**1.5.Elektron xidmətin digər icraçıları:** Xaricdə yaşayan azərbaycanlıların və Azərbaycan Respublikasının ərazisində olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Xarici İşlər Nazirliyinin fəaliyyət istiqamətlərinə dair müraciətlərinə baxılması XİN-in öz səlahiyyətləri daxilində icra edilir.

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** Bu sahədə göstərilən elektron xidmət qismən avtomatlaşdırılmışdır.

**1.7.Elektron xidmətin icra müddəti:** Qanunvericilikdə digər hallar nəzərdə tutulmadığı təqdirdə, Xarici İşlər Nazirliyinə daxil olan müraciətə 1 ay ərzində baxılır.

**1.8.Elektron xidmətin göstərilməsinin nəticəsi:** Xaricdə yaşayan azərbaycanlıların və Azərbaycan Respublikasının ərazisində olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Xarici İşlər Nazirliyinə daxil olan müraciətlərinin operativ icrasının təmin edilməsi.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** interaktiv.

**2.2. Elektron xidmət üzrə ödəniş:** Xaricdə yaşayan azərbaycanlıların və Azərbaycan Respublikasının ərazisində olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin e-müraciətinə baxılması ödənişsiz olaraq həyata keçirilir.

**2.3. Elektron xidmətin istifadəçiləri:** Elektron xidmətin istifadəçiləri fiziki şəxslərdir.

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** http://mfa.gov.az/index.php

**2.5. Elektron xidmət barədə məlumatlandırma:** http://mfa.gov.az/index.php

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:**
- sərbəst formada müraciət ərizəsi;
- ərizəçinin şəxsiyyətini təsdiq edən sənədin surəti;
- zərurət olduğu təqdirdə müraciətdə qeyd olunan məsələyə dair sənədlərin surəti.

**Qeyd:** Müraciətin məzmunundan asılı olaraq digər sənədlər də tələb oluna bilər.

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.1.** İnformativ növlü elektron xidmətlər istifadəçilər ücün daim açıqdır və müraciət edilməsi hər hansı qaydada məhdudlaşdırıla bilməz.
. İnteraktiv elektron xidmətlər uçun sorğu:

**3.2.** Sorğu xaricdə yaşayan azərbaycanlıların və Azərbaycan Respublikasının ərazisində olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin e-müraciətləri internet ünvanının xüsusi bölməsində yaradılmış və real vaxt rejimində ərizə formasının doldurulması, eləcə də müraciət üçün tələb olunan digər müvafiq sənədlərinin surətinin əlavə edilməsi ilə formalaşdırılır. Doldurulmuş ərizə, şikayət, təklif Azərbaycan Respublikasının Xarici İşlər nazirliyində qeydiyyata düşür və sənədin qəbul edilməsi barədə ərizəçiyə bildiriş göndərilir.

**3.3. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:** Xaricdə yaşayan azərbaycanlıların və Azərbaycan Respublikasının ərazisində olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Xarici İşlər Nazirliyinin səlahiyyətinə dair müraciətləri baxılmaq üçün XİN tərəfindən qəbul edilir.

Müraciət məzmunu baxımından araşdırılır və nəticəsi barədə ərizəçiyə müvafiq məlumat verilir.
Elektron xidmətin göstərilməsindən aşağıdakı hallarda imtina edilir:
- Dövlət sirri və məxfi xarakter daşıyan məlumatların sorğusu;
- Xarici İşlər Nazirliyinin səlahiyyətinə aid olmayan məsələyə dair müraciət;
- Müraciətə dair tələb edilən sənədlərin təqdim edilmədikdə;
- Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq, informasiya sorğusunun verilməsindən imtina edilməsini nəzərdə tutan digər hallar.

**3.4.Sorğunun icrası:** Elektron xidmət vasitəsilə Xarici İşlər Nazirliyinə daxil olan müraciətlər qeydiyyata alınır və baxılması üçün Xarici İşlər Nazirliyinin müvafiq struktur bölməsinə göndərilir. Həmin struktur bölmənin rəhbəri müraciətin inzibati reqlamentə uyğun tərtib edilməsini və müraciətin Xarici İşlər Nazirliyinin səlahiyyətinə aid olub-olmadığını müəyyənləşdirir. Müraciətin icrasına və ya imtina edilməsinə dair qərar qəbul edir. Müraciət icraata qəbul olunduğu təqdirdə ərizədə qeyd olunan məsələyə dair müvafiq araşdırmalar aparılır. Zərurət olduqda Azərbaycan Respublikasının aidiyyəti təşkilatlarına, Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarına sorğular göndərilir. Toplanmış məlumatların təhlili aparılır, ərizəçiyə cavab məktubu yazılır. XİN-ə daxil olmuş müraciət 1 ayadək müddət ərzində cavablandırılır. Müraciətin icrasından imtina olunduğu təqdirdə ərizəçi bu barədə məlumatlandırılır.

**3.5. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:** Elektron xidmətin yerinə yetirilməsinə nəzarət Xarici İşlər Nazirliyinin Ümumi katiblik idarəsi tərəfindən həyata keçirilir. Xidmətin göstərilməsi ilə bağlı yaranan hər hansı anlaşmazlığın aradan qaldırılması və ya metodiki dəstəyin göstərilməsi üçün əlaqə vasitələrindən istifadə olunur.

**3.6. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:** Müraciətlərin baxılmasına dair göstərilən xidmətdən və onların icrasını həyata keçirən məsul şəxslərin hərəkətlərindən Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydada şikayət verilə bilər.